**Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planının təsdiq edilməsi haqqında**

"Açıq Hökuməti təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamının 3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə

**Əmr edirəm:**

1. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planı təsdiq edilsin (,əlavə olunur) və bu barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına məlumat verilsin.
2. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin edilməsi və aşkar olunmuş nöqsanların aradan qaldırılması məqsədi ilə aşağıdakı tərkibdə komissiya yaradılsın:

| | | |
|---|---|---|
| N.Abbasov | - Nazir müavini | - sədr; |
| İ.Ağayev | - Hüquqi münasibətlər və metrologiya şöbəsinin müdiri | - sədr müavini; |
| T.Cəfərov | - Energetika şöbəsinin müdiri | - üzv; |
| R.İbrahimov | - Lisenziya və enerji daşıyıcılarına Nəzarət şöbəsinin müdiri | - üzv; |
| E.Həşimov | - Yanacaq və enerji resurları şöbəsinin müdiri | - üzv; |
| P.Məmmədov | - Dövlət Enerji Nəzarəti İdarəsinin rəisi | - üzv; |
| A.Zeynalov | - Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi | - üzv; |
| C.Tahirov | - Hüquqi münasibətlər və metrologiya şöbəsinin baş məsləhətçisi | - üzv; |
| İ.Mehdiyev | - Lisenziya və Enerji daşıyıcılarına Nəzarət şöbəsinin böyük məsləhətçisi | - üzv. |

3. Komissiyaya tapşırılsın:
1. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin aidiyyəti olanlar tərəfindən icrasını əlaqələndirsin;
2. Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin icrası barədə hər il yanvarın 15-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsi üçün illik hesabat hazırlasın;
3. İstehlakçılardan nazirliyə yuxarı orqanlar vasitəsilə vəya bilavasitə daxil olmuş "Energetika haqqında", "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında" Azərbaycan Respublikası Qanunlarının, "elektrik enerjisindən istifadə Qaydaları"nın və "Qazdan istifadə Qaydaları"nın tələblərinin pozulması ilə bağlı müraciət, ərizə və şikayətləri araşdırsın;
4. Araşdırma zamanı korrupsiya və digər ciddi pozuntu halları müəyyən olunduğu təqdirdə müvafiq qaydada tədbir görülməsi üçün nazirliyin rəhbərliyinə məlumat versin.

4. Dövlət Qaz Nəzarəti İdarəsinin rəisi (A.Zeynalov) və Dövlət Enerji Nəzarəti İdarəsinin rəisi (P.Məmmədov) öz strukturlarında "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
5. Nazirliyin aparatının struktur bölmələri və strukturuna daxil olan idarələr:
1. öz fəaliyyətlərində "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın müddəalarını rəhbər tutsunlar;
2. Azərbycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik iş planında nəzərdə tutulan tədbirlərin icrası barədə illik hesabatı hər ilin sonunda Komissiyanın sədrinə təqdim etsinlər.

6. Nazirliyin 01 iyul 2010-cu il tarixli 30 nömrəli əmri ləğv edilsin.
7. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aparatının struktur bölmələrinə və strukturuna daxil olan idarələrə çatdırılmasını təmin etsin.
8. Elektron İdarəetmə şöbəsi bu əmrin nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
9. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

Nazir                                                  Natiq Əliyev

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin ___ __________ 2012-ci il tarixli ____ nömrəli əmri ilə təsdiq edilmişdir

Azərbaycan Respublikası Sənaye və Energetika Nazirliyinin "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə illik İş Planı

| № | Görüləcək işlər və gözlənilən nəticələr | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| 1. | **Ərizə və şikayətlərə baxılması işinin təkmilləşdirilməsi**<br>1.1.Nazirliyin rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili;<br><br>1.2. Ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi. | Nazir, Nazir müavinləri, Aparatın rəhbəri, şöbə müdirləri<br><br>Mətbuat katibi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr | 2012-2015-ci illər<br><br>2013-2014-cü illər |
| 2. | Dövlət qulluğuna qəbulun müsabiqə və şəffaflıq əsasında həyata keçirilməsi mexanizmlərinin təkmilləşdirilməsi | Kadrlar və sosial siyasət şöbəsi | 2012-2014-cü illər |
| 3. | Maraqlar toqquşmasının qarşısının alınması üzrə treninqlərin təşkili | Kadrlar və sosial siyasət şöbəsi | 2013-2015-ci illər |
| 4. | **Etik davranış qaydalarının təkmilləşdirilməsi**<br>4.1. Dövlət qulluqçuları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kursları və treninqlərin təşkil edilməsi;<br><br>4.2. Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalrının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması;<br><br>4.3. Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizmlərinin müəyyən edilməsi;<br><br>4.4. Nazirliyin internet saytında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə | Aparatın rəhbəri, Kadrlar və sosial siyasət şöbəsi<br><br>Aparatın rəhbəri, Kadrlar və sosial siyasət şöbəsi<br><br>Aparatın rəhbəri, Kadrlar və sosial siyasət şöbəsi, Hüquqi münasibətlər və metrologiya şöbəsi<br><br>Aparatın rəhbəri, Elektron İdarəetmə şöbəsi | 2012-2015-ci illər<br><br>2012-2015-ci illər<br><br>2013-2014-cü illər<br><br>2013-cü il |

| | | | |
|---|---|---|---|
| | mexanizmi, etik qaydalar, etik hesabatlar və s.) | | |
| 5. | Sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə edilməsi əsasında təyin edilməsi. | Lisenziya və enerji daşıyıcılarına nəzarət şöbəsi, Hüquqi münasibətlər və metrologiya şöbəsi və struktura daxil olan idarələr | Mütəmadi |
| 6. | **Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması**<br>6.1. Elektron dövlət satınalmalarının tətbiq edilməsi;<br><br>6.2. Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə və satınalma müqavilələrinin icrasında qanun pozuntularına yol vermiş fiziki və hüquqi şəxslərin gələxəkdə dövlət satınalmalarında iştirakını məhdudlaşdıran mexanizmin yaradılması;<br><br>6.3. Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarını qorumaq məqsədi ilə şikayətlərə təxirə salınmadan baxılması üçün müvafiq tədbirlər görülməsi;<br><br>6.4. Dövlət satınalmalarında aşkar edilən korrupsiya halları barədə hüququ mühafizə orqanlarının məlumatlandırılması;<br><br>6.5. Dövlət satınalmalarının həyata keçirilməsi zamanı ehtimal olunan qiymətlərin müəyyən edilməsi metodologiyasının hazırlanması;<br><br>6.6. Növbəti il üçün satınalma planlarının hazırlanaraq Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməsi;<br><br>6.7. Dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin vahid reyestrinin yaradılması və həmin reyestrin Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilməsi. | İqtisadiyyat şöbəsi, Elektron İdarəetmə şöbəsi<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, Energetika şöbəsi, Yanacaq və enerji resursları şöbəsi<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, Energetika şöbəsi, Yanacaq və enerji resursları şöbəsi, Hüquqi münasibətlər və metrologiya şöbəsi<br><br>Aidiyyəti şöbələr<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, Energetika şöbəsi, Yanacaq və enerji resursları şöbəsi<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, Energetika şöbəsi, Yanacaq və enerji resursları şöbəsi, Elektron İdarəetmə şöbəsi<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, Energetika şöbəsi, Yanacaq və enerji resursları şöbəsi, Elektron İdarəetmə şöbəsi | 2013-cü il<br><br>2013-2014-cü illər<br><br>mütəmadi<br><br>mütəmadi<br><br>2013-2014-cü illər<br><br>2013-cü il<br><br>2013-cü il |

| | | | |
|---|---|---|---|
| 7. | **Lisenziya və icazə vermə işinin təkmilləşdirilməsi**<br>7.1. Lisenziya və icazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkil olunması;<br><br>7.2. "İcazələrin elektron informasiya portalı"nın fəaliyyətinin təmin və təşviq edilməsi, yeni qəbul olunmuş icazə xarakterli sənədlər barədə məlumatların və qanunvericilik aktlarının layihələrinin portala daxil edilməsi. | <br><br>Lisenziya və enerji daşıyıcılarına nəzarət şöbəsi, Elektron İdarəetmə şöbəsi<br><br>Lisenziya və enerji daşıyıcılarına nəzarət şöbəsi, Elektron İdarəetmə şöbəsi | <br><br>2013-2014-ci illər<br><br>2013-cü il |
| 8. | **Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əmkdaşlığın inkişaf etdirilməsi**<br>8.1. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi;<br><br>8.2. Birləşmiş Millətlər Təşkilatı, Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupu (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İstanbul Anti-Korrupsiya Fəaliyyət Planı çərçivəsində Azərbaycan Respublikasına verilmiş tövsiyələrin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi. | <br><br>Beynəlxalq əlaqələr şöbəsi və aidiyyəti şöbələr<br><br>Beynəlxalq əlaqələr şöbəsi və aidiyyəti şöbələr | <br><br>2012-2015-ci illər<br><br>2012-2015-ci illər |
| 9. | **Korrupsiyaya qarşı mübarizə sahəsində vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın inkişaf etdirilməsi**<br>9.1. Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrasına vətəndaş cəmiyyəti insititutlarının cəlb edilməsi;<br><br>9.2. Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi və birgə layihələrin həyata keçirilməsi. | <br><br><br>Aidiyyəti şöbələr və struktura daxil olan idarələr<br><br>İqtisadiyyat şöbəsi, Maliyyə-mühasibat şöbəsi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr | <br><br><br>2012-2015-ci illər<br><br>2012-2015-ci illər |
| 10. | **Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə**<br>10.1. Nazirlik tərəfindən öz fəaliyyətində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında xüsusi verilişlərin və debatların təşkil edilməsi; | <br><br>Aidiyyəti şöbələr və struktura daxil olan idarələr | <br><br>mütəmadi |

| | | | |
|---|---|---|---|
| | 10.2. Nazirliyə ictimai etimadın artırılması məqsədi ilə nazirliyin fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi;<br><br>10.3. Korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanması. | Mətbuat katibi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr<br><br>Mətbuat katibi, aidiyyəti şöbələr və struktura daxil olan idarələr | mütəmadi<br><br>mütəmadi |